# USE OF HEYDAR ALIYEV'S HERITAGE IN MATTERS OF SPIRITUAL EDUCATION OF YOUTH

**Elnare Mammadova**

Azerbaijan State Pedagogical University,
PhD in pedagogy
E-mail: elnare_mammadova@yahoo.com
https://orcid.org/0000-0002-8472-7703

**Abstract.** The article talks about the important position of our great leader Heydar Aliyev in the history of Azerbaijan, and his unforgettable services in important issues such as the preservation of the national and moral values of our people in both the Soviet and independence periods. In the globalized world, the national leader showed the citizens of the independent state of Azerbaijan the ways for their successful future. In the article, the reader is introduced to the great leader's recommendations about the duties of the Azerbaijani school and teachers, as well as our national spirituality in the education of the young generation, the importance of scientific and physical training of the youth of an independent state, and the manner of approaching these issues related to patriotism. At the same time, familiarity with these ideas once again confirms the fact that Heydar Aliyev has a unique place in the history of pedagogical ideas, so the reader's attention is directed to those ideas.

**Keywords**: moral education, mother tongue, science, patriotism, national army, Islamic culture, national and universal values.

**DOI:** 10.30546/2709-2488.2.2023.9
**To cite this article:** Mammadova E. (2023). Use of Heydar Aliyev's heritage in matters of spiritual education of youth. *Journal of Preschool and Primary Education*, Vol. 243, Issue II, pp. 9-18.
**Article history:** received – 17.04.2023; accepted – 10.05.2023.

# GƏNCLƏRİN MƏNƏVİ TƏRBİYƏSİNDƏ HEYDƏR ƏLİYEV İRSİNDƏN İSTİFADƏ

**Elnarə Məmmədova**

Azərbaycan Dövlət Pedaqoji Universiteti,
pedaqogika üzrə fəlsəfə doktoru
E-mail: elnare_mammadova@yahoo.com
https://orcid.org/0000-0002-8472-7703

**Annotasiya.** Məqalədə ulu öndər Heydər Əliyevin Azərbaycanın tarixində önəmli mövqeyindən, onun həm sovet, həm də müstəqillik dövrlərində xalqımızın milli-mənəvi dəyərlərinin qorunub saxlanması kimi mühüm məsələlərdə göstərmiş olduğu unudulmaz xidmətlərindən bəhs olunur. Ümummilli liderin qloballaşan dünyada müstəqil Azərbaycan dövlətinin vətəndaşlarına onların uğurlu gələcəyi naminə göstərdiyi yollardan söz açılır. Məqalədə oxucu ulu öndərin Azərbaycan məktəbinin və müəllimlərin üzərinə düşən vəzifələr barədə verdiyi tövsiyələrlə tanış edilir, həmçinin gənc nəslin tərbiyəsində milli mənəviyyatımızla, müstəqil dövlətin gənclərinin elmi və fiziki hazırlığının əhəmiyyəti ilə, vətənpərvərliklə bağlı bu məsələlərə yanaşma tərzindən bəhs edilir. Eyni zamanda, bu fikirlərlə tanışlıq Heydər Əliyevin pedaqoji fikir tarixində də özünəməxsus yerinin olması faktını bir daha təsdiqlədiyi üçün oxucunun diqqəti həmin fikirlərə yönəldilir.

**Açar sözlər**: mənəvi tərbiyə, ana dili, elm, vətənpərvərlik, milli ordu, islam mədəniyyəti, milli və ümumbəşəri dəyərlər.

**DOI:** 10.30546/2709-2488.2.2023.9
**Məqaləyə istinad:** Məmmədova E. (2023). Gənclərin mənəvi tərbiyəsində Heydər Əliyev irsindən istifadə. «*Məktəbəqədər və ibtidai təhsil*», № 2 (243), səh. 9-18.
**Məqalə tarixçəsi:** göndərilib – 17.04.2023; qəbul edilib – 10.05.2023.

## Giriş / Introduction

Ulu öndər Heydər Əliyev Azərbaycan tarixinin böyük şəxsiyyətlərindəndir. O, öz ölkəsinin tarixi memarı olmaqla bərabər, onun gələcək inkişafına istiqamət verən ideyaların müəllifi kimi mühüm bir missiyanı öz üzərinə götürmüşdü.

Məhz Heydər Əliyev vətənin ən təlatümlü günlərində, xalqımız siyasət aləmində təklənəndə öz müdrikliyi ilə dünya liderləri səviyyəsinə qalxmış və özü ucaldıqca, millətini də ucaltmışdır. Onun rəhbərlik etdiyi dövrdə Azərbaycanda dövlət quruculuğunun əsası qoyulmuş, qədim tarixi keçmişə malik olan ölkəmiz iqtisadiyyatı və mədəniyyəti, tarixi ənənələri ilə bütün dünyada şöhrət tapmışdır.

Tarixi inkişafın qloballaşması dövründə Heydər Əliyev zirvəsi daha möhtəşəm, daha əzmli, daha qüdrətli və daha çoxşaxəli görünməkdədir. Tarixdən də məlumdur ki, belə şəxsiyyətlər vəzifələrindən asılı olmayaraq, həmişə öz xalqının taleyi uğrunda ən ağır günlərdə belə vətəninin haqq səsini ucaldaraq, bu səsi dünyaya çatdırmağa müvəffəq olmuşlar.

## Əsas hissə / Main part

**Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz.** Ümummilli liderimiz H.Əliyevin fikrincə, "azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən – inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir".

Ulu öndər H.Əliyevin vətənin fədakarcasına sevən xalqı birləşdirən azərbaycançılıq ideyası Azərbaycan vətəndaşları üçün böyük bir mənəvi kateqoriyaya çevrilmişdir.

Heydər Əliyev hakimiyyətinin həm I dövrü (1969–1983), həm də II dövrü (1993–2003) Azərbaycan cəmiyyətinin milli-mənəvi dəyərlərinin mühafizəsinin əsası sayılan mədəniyyət və ədəbiyyatının da dünyada tanınması, qəbul olunması dövrüdür. Məhz bu illərdə Azərbaycan dilinin və mədəniyyətinin inkişafına diqqət artırılmış, ana dilinin, ədəbiyyatın sosial-siyasi və ideoloji problemləri ilə bilavasitə bağlı olan fərmanlar verilmişdir.

Mövcud ideologiyanın bu istiqamətdə çox şeylərə imkan vermədiyi o illərdə Bakı şəhərinin mərkəzi park və meydanlarında Nizami, Füzuli, Nəsimi kimi mütəfəkkirlərin, Hüseyn Cavid, Cəfər Cabbarlı, Mikayıl Müşfiq, Nəriman Nərimanov kimi ədəbiyyat xadimlərinin abidələri qoyulmuş, Nizami Gəncəvinin 840 illiyi, Məhəmməd Füzulinin 500 illiyi, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyi təkcə Azərbaycanda deyil, dünyanın bir çox ölkələrində qeyd olunmuşdur.

H.Əliyevin hakimiyyətdə olduğu illərdə Nizami, Füzuli, Nəsimi kimi mütəfəkkirlərin Səməd Vurğun, Hüseyn Cavid, Üzeyir Hacıbəyov, Qara Qarayev, Fikrət Əmirov, Arif Məlikov kimi ədəbiyyat və incəsənət xadimlərinin dünyada tanınması üçün münbit tarixi şərait yaradılmışdır. Xalqımızın mənəvi cəhətdən zənginləşməsində böyük xidmətləri olan yazıçı və şairlərimizdən Süleyman Rüstəm, Süleyman Rəhimov, Mirzə İbrahimov, Rəsul Rza, Bəxtiyar Vahabzadə, Məmməd Araz, Xəlil Rza Ulutürk, Nəriman Həsənzadə, Cabir Novruz və başqaları ən yüksək adlara və dövlət mükafatlarına layiq görülmüşlər.

Heydər Əliyevin xalqımızın milli-mənəvi dəyərlərinin qorunub saxlanılmasında, bu dəyərlərin zənginləşməsində göstərdiyi tarixi xidmətlər gələcək nəsillər üçün də örnək olacaqdır. Ümummilli liderin Azərbaycan xalqının milli-mənəvi dəyərləri ilə bağlı 2001-ci il aprel bəyanatı millətimizin adət-ənənələrinə, milli və əxlaqi dəyərlərinə, tarixi köklərinə verilən böyük qiymət, onun inkişafı üçün dövlət tərəfindən verilən təminatdır.

XX–XXI əsr Azərbaycan tarixində ilk dəfə olaraq milli-mənəvi dəyərlərimizi əks etdirən Novruz, Qurban, Ramazan bayramlarının təqvimdə bayram günləri kimi qeyd edilməsi də ulu öndərin xalqın milli dəyərlərinə qayğı və hörmətinin təzahürüdür. Novruz bayramının mənəviyyatımızdakı rolunu səciyyələndirən ulu öndərimiz demişdir: “Bayramın bizə bəxş etdiyi ən gözəl nemət ondan ibarətdir ki, qədim zamanlardan bu bayramda insanlar kin-küdurəti unudur, küsülülər barışır, ziddiyyətlər aradan götürülürdü. Deməк, bu, dostluq, həmrəylik, yüksək mənəviyyat bayramıdır”.

**Heydər Əliyev və təhsilimiz.** Heydər Əliyevin milli tərəqqinin, elmin, mədəniyyətin və mənəviyyatın inkişafında əvəzedilməz vasitə olan təhsilə qayğısı, təhsilin inkişafı yolundakı xidmətləri böyükdür. Dünya sivilizasiyasının tarixi təcrübəsi göstərir ki, elmə, təhsilə yüksək qiymət verən dövlət başçıları bununla, nəinki öz ölkələrinin iqtisadi və mədəni yüksəlişini təmin edir, həm də xalqın mənəviyyatını hifz etmiş olurlar. Bu mənada Heydər Əliyevin təhsilin inkişafına göstərmiş olduğu qayğı və diqqət özünəməxsusluğu ilə seçilir. Belə ki, hakimiyyətə gəldiyi 1969-cu ildən başlayaraq, ölkəmizin keçdiyi inkişaf yolu tarixdə Azərbaycan Respublikasının dirçəliş dövrü kimi qiymətləndirilir.

Azərbaycanın mənafeyini hər şeydən üstün tutan ulu öndər bütün dövrlərdə vətəni Azərbaycana aid taleyüklü məsələlərdə öz qətiyyətli mövqeyi ilə seçilmişdir. “O, elə bil ki, özü bu cəmiyyətin müəllimi idi” desək, yanılmarıq, çünki ulu öndər hər zaman ictimaiyyətin fikirlərini onlara mənən dəstək olaraq, əsl ümummilli lider kimi lazımi istiqamətlərə yönəldərək, cəmiyyətin inkişafında yüksək səviyyələri fəth edirdi.

**Heydər Əliyev və Azərbaycan müəllimləri.** “Müəllimlik şərəfli bir peşədir. Azərbaycan müəllimləri ən yüksək adı ləyaqətlə daşıyırlar. Mən həmişə

müəllimlərimizin əməyinə hörmətlə yanaşmışam. Bu gün də Azərbaycan müəllimlərinə cəmiyyətin inkişafı naminə göstərdikləri fədakarlığa görə öz adımdan, bütün xalqımız adından minnətdarlığımı bildirirəm. Biz hamımız Azərbaycan məktəbinə, Azərbaycan müəllimlərinə, Azərbaycan təhsil işçilərinə borcluyuq" [H.Əliyev]. Ümummilli liderin bu sözləri müəllimlərin 2003-cü il, 4 oktyabrda, Heydər Əliyev sarayında keçirilən XII qurultayında səsləndirilmiş və onlar tərəfindən böyük minnətdarlıqla qarşılanmışdır. (Səhhəti ilə əlaqədar olaraq ulu öndər bu qurultayda iştirak edə bilmir...)

Ulu öndər təhsilimizin dünəninə, bu gününə, sabahına diqqət və qayğı ilə yanaşır, təhsil işçilərinin nailiyyətlərini qiymətləndirir və diqqəti ölkədə həyata keçirilən təhsil islahatlarının zəruriliyinə cəlb edirdi. H.Əliyev deyirdi: "Xalqımızın zəngin tarixini, mədəniyyətini, mənəviyyatını, mənəvi dəyərlərini uşaqlara öyrətmək, uşaqları həmin ənənələr ruhunda tərbiyə etmək müəllimlərin müqəddəs borcudur".

Qurultay nümayəndələrinə ünvanlanan məktubu oxuduqca bir daha ulu öndərimizin təhsilə nə qədər dəyər verdiyinin şahidi oluruq. "Təhsil millətin gələcəyi, müstəqil dövlətin təməlidir. Azərbaycan Respublikasının prezidenti kimi sizi əmin etmək istəyirəm ki, təhsil sahəsi, təhsil islahatları hər zaman mənim diqqət və qayğım altındadır. Hesab edirəm ki, dövlət ən çətin vaxtlarında belə təhsilə və təhsil işçilərinə, məktəbə və müəllimə kömək etməlidir. Bu, fəaliyyətimin bütün dövrlərində mənim prinsipial mövqeyim olmuşdur" [Nəcəfov N., 2021].

Ölkəmizin tarixi keçmişinə nəzər salarkən ümummilli liderin Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin mühafizəsində mühüm rol oynayan xidmətləri minnətdarlıqla anılır.

**Heydər Əliyev və ana dilimiz.** Azərbaycanın ləyaqətli oğlu 34 illik rəhbərliyi dövründə müxtəlif maneələr və çətinliklərlə qarşılaşsa da, xalqın milli-mənəvi dəyərlərinin əsası sayılan ana dilinin qorunub saxlanmasına, 1978-ci ildə onun dövlət dili kimi Azərbaycan SSR Konstitusiyasına daxil edilməsinə nail olmuşdur.

Məlum olduğu kimi, o dövrdə rus dilini hamı bilmirdi, lakin o adamların içərisində çox dəyərli kadrlar var idi. Ulu öndərimizin bu tarixi addımından sonra ana dilli kadrların müxtəlif dövlət idarələrində mühüm vəzifələr tutmaları üçün şərait yaradıldı.

Azərbaycan xalqının dövlətçilik tarixində onun dilinə xüsusi diqqət və qayğı ilə yanaşmağı bacarmış iki böyük dövlət başçısının adını tarix daim yaşadacaq. Bunlardan biri XV əsrdə yaşamış, Azərbaycan dilini dövlət dili səviyyəsinə qaldırmış Şah İsmayıl Xətai, ikincisi isə XX əsr kimi keşməkeşli bir tarixi dövrdə yaşamış və ana dilimizin qorunmasında böyük xidmətləri olmuş ümummilli liderimiz Heydər Əliyevdir.

1993-cü ildə Azərbaycan EA-da ziyalılarla görüşündə prezident H.Əliyev "Xalqın mənəvi dəyərlərini qoruyub inkişaf etdirməli" adlı çıxışında qeyd etmiş ki, "...alimlərin elmi tədqiqat işlərini milli müstəqillik məsələlərinə yönəltmək və Azərbaycan elminin nəyə qadir olduğunu dünyaya göstərmək olduqca vacibdir, məsələn, ədəbiyyatşünaslar, filosoflar axtarıb tapsaydılar və layiqincə sübut edə bilsəydilər ki, böyük alman filosofu Höte özünün bəzi fəlsəfi müddəalarını Nizami Gəncəvinin fikirləri əsasında izah etmişdir, (Bu tarixi həqiqətdir) əlbəttə ki, obyektivlik olardı. Yaxud, Hüseyn Cavidi "Şərqin Şekspiri" adlandırırdılar. Onu, bəlkə də Höte ilə müqayisə etmək daha düzgün olardı. Əsərlərindəki fəlsəfi fikirlərə görə, ola bilsin, Cavid Şekspirdən də yüksək səviyyəyə qalxmış bir adamdır. Hüseyn Cavidin "İblis" əsəri heç də Hötenin "Faust"undan geri qalmır, lakin biz belə inciləri qiymətləndirə bilmirik. Biz bu şəxsiyyətləri itirə bilərik.

Bizdən ötrü M.F.Axundov da, Ə.Ağayev də, M. Rəsulzadə də, N. Nərimanov da böyük şəxsiyyətlərdir. Mədəni irsə laqeyd yanaşmaq olmaz. Azərbaycan xalqının çox qədim və zəngin tarixi, böyük mədəniyyəti və incəsənəti vardır. Bu mədəniyyəti, onun qədimliyini, dünya miqyasında böyük şöhrətə malik olduğunu məktəblilərə, gənclərə çatdırmaq lazımdır. Belə edilərsə, gənclərdə azərbaycançılıq hissi qat-qat yüksəlmiş olar. Müstəqillik dövründə torpaqlarımızı müdafiə etmək, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün bu, çox vacibdir" [Əliyev H., 1997].

"Müstəqil dövlət olmaq üçün xalqın yüksək mentalitet səviyyəsi olmalıdır. Xalqın mentalitetini qaldırmaq üçün isə elm öyrənmək, elmi yaymaq, xalqımızın böyük şəxsiyyətlərinin həm yaradıcılığını, həm də Azərbaycan xalqı qarşısındakı xidmətlərini tədqiq etmək, gənc nəsillərə çatdırmaq lazımdır. Gələcək bilikli, elmli insanların çiyinləri üstündə qurulacaqdır. Bunlarsız Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq çətin olar" [ Əliyev H., 1997].

Ümummilli lider dəfələrlə çıxışlarında mənəvi tərbiyə məsələlərinə və onun aktual problemlərinə toxunmuşdur. Heydər Əliyev deyirdi: "İnsanın mənəvi keyfiyyətləri, xarakterinin ilkin əlamətləri ailədə formalaşır. Ailə ilk tərbiyə məktəbi kimi insanın formalaşmasında mühüm rol oynayır. Uşaqlar ailədə dünyaya göz açır, məktəbdə isə şəxsiyyət kimi formalaşırlar. Azərbaycan xalqı keçdiyi bütün dövrlərdə gənclərimizə hər zaman yüksək mənəvi keyfiyyətlər aşılamışdır" [Əliyev H., 1996].

O, Azərbaycanda fəaliyyət göstərən gənclərin mənəvi tərbiyəsinin zəngin proqramını verərək demişdir ki, nə qədər var-dövlət, pul, zənginlik olsa da, mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz.

Ulu öndərin fikrincə, insanı ucaldan, onu zənginləşdirən mənəvi komponentlərə məhz vətənpərvərliyi, milli ləyaqəti, hərbi vətənpərvərliyi, milli iftixarı, dəyanət və vicdanı, düşmənə nifrəti, xalqımızın adət və ənənələrini,

ana dilini dərindən bilməyi, milli və ümumbəşəri mənəvi dəyərlərin vəhdətinin təmin edilməsini, böyüyə hörməti, düzlük və doğruçuluğu və s. aid etmək olar. Bu keyfiyyətlərin daşıyıcısına çevrilmək üçün isə gənclərimizin öz milli mədəniyyətinə, milli adət-ənənələrinə daha dərindən bələd olmaları labüddür. Bunun üçün hər bir məktəbli, gənc öz ana dilini mükəmməl bilməli, dünya dillərini isə öyrənməlidir. Bu baxımdan təhsilin ibtidai pilləsinin, bəzi ölkələrdə olduğu kimi, yalnız Azərbaycan dilində fəaliyyət göstərməsinin zamanı çatmışdır desək, bəlkə də yanılmarıq.

Ulu öndər hətta düşmənin də dilini öyrənməyi tövsiyə edərək bunun zəruri olduğunu bildirmişdir. "Öz dilini bilməyən, öz dilini sevməyən adam öz tarixini yaxşı bilməz. Azərbaycan ədəbiyyatını, ana dilini bilməyən gənc Nizamini, Füzulini, Nəsimini, Vaqifi, Sabiri, Cəlil Məmmədquluzadəni oxuya bilməz. Əgər onları oxuya bilməsə, vətənpərvər olmayacaq. Azərbaycan gəncləri Şekspiri ingiliscə, Puşkini rusca oxusa, bu, bizim fəxrimizdir. Bu gün üçün bunlar çox vacibdir" [Əliyev H., 1996].

Müəllimlər, təhsil işçiləri ulu öndərin fikirlərini hər zaman gənc nəslə çatdırmalıdırlar. Belə olsa, Heydər Əliyevin milli və ümumbəşəri dəyərlərin vəhdətinin təmin edilməsi kimi ideyaları həyata keçə bilər.

**Heydər Əliyev və multikulturalizm dəyərləri.** Ölkəmizdə məhz tolerantlığın və multikulturalizmin təməlinin qoyulmasına Heydər Əliyevin dəyərli ideyaları səbəb olmuşdur. O, bu məsələyə müdrikliklə yanaşaraq, Azərbaycanın, milliyyətindən asılı olmayaraq, hər bir vətəndaş üçün ana vətən olduğunu söyləmişdir: "Vətəndaş" sözü o deməkdir ki, hər bir vətəndaş öz vətəninə sadiq olmalı, onu göz bəbəyi kimi qorumalı və vətən uğrunda, torpaq uğrunda, ana-atasının müdafiəsi yolunda şəhid olmağa hazır olmalıdır. Milli vətəpərvərlik Azərbaycanda yaşayan bütün millətlərin vətənpərvər olması deməkdir. Azərbaycan onların hamısının vətənidir" [Talıbov Y., Sadıqov F., Quliyev S., 2000].

**Heydər Əliyev və islam dəyərləri.** Ulu öndər hər zaman islam dəyərlərinə yüksək qiymət verərək, "Qurani-Kərim"in bu gün də, gələcəkdə də xalqımızın, gənclərimizin tərbiyəsi üçün mühüm əhəmiyyət kəsb etdiyini dəfələrlə qeyd etmişdir. İslam dininin bəşəriyyətə bəxş etdiyi bütün nemətlərdən hər bir azərbaycanlı yararlanmalıdır. Xüsusən insanların cəmiyyətdə davranışı islam dininin tələblərinə uyğun olaraq özünü göstərməlidir. Bu isə uşaqların mənəvi tərbiyəsinə daha çox diqqət yetirilməsini tələb edir.

**Heydər Əliyev və vətənpərvərlik tərbiyəsi.** Hər bir müəllim, tərbiyəçi-müəllim, təhsil işçisi bilməlidir ki, vətən sevgisi, doğma yurda məhəbbət asanlıqla tərbiyə edilmir. Bu, mürəkkəb prosesdir. Vətənpərvərlik tərbiyəsinin ən yüksək zirvəsi hərbi xidmətdir. Ümummilli liderimizin hərbi vətənpərvərlik,

milli ordunun formalaşması sahəsində də böyük xidmətləri olmuşdur.

Bu gün əminliklə deyə bilərik ki, Azərbaycan xalqının keçdiyi şanlı döyüş yollarında qələbəsinin təməli ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur.

Prezidentimiz, ali baş komandan İlham Əliyevin də hər bir Azərbaycan övladı kimi, ulu öndərimizin nəsihətlərinə ciddi şəkildə əməl etdiyi açıq-aşkar görünür.

Azərbaycan xalqı mənfur ermənilərin onun başına açdığı müsibətləri heç vaxt unutmamalıdır. Ölkəmizin tarixi həqiqətlərini uşaq bağçalarından, ibtidai siniflərdən başlayaraq öyrətmək vacibdir.

Ümummilli lider mənəvi tərbiyə məsələlərinə həmişə böyük qayğı ilə yanaşmış, gənclərin mənəvi tərbiyəsi məsələsini mühüm problem hesab etmişdir. Ümumbəşəri dəyərləri, Azərbaycan xalqının milli-mənəvi dəyərlərini hər bir gənc dərindən mənimsəməlidir. Heydər Əliyevin sözləri ilə desək, "mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz" ["Azərbaycan müəllimi" qəzeti, 2 sentyabr, 1997].

Dövlətin əsasını təşkil edən gənclərin tərbiyəsi əsasən ümumtəhsil məktəblərində formalaşdığı üçün müəllimlər bu məsələyə daha çox diqqət yetirməli, davranışları ilə nümunə olmalı, görkəmli şəxsiyyətlərin fikirlərinə, kəlamlarına, ulu öndərimiz H.Əliyevin həyat və fəaliyyətinə əsaslanaraq məktəblilərin, gənclərin mənəvi tərbiyəsini düzgün istiqamətə yönəltməlidirlər.

## Nəticə / Conclusion

Bu gün Azərbaycan müəllimlərinin qarşısında çox böyük və olduqca şərəfli vəzifə durur. Təhsil ocaqlarında xalqımız, dövlətimiz üçün yüksək mənəviyyatlı, texnoloji biliklərə malik zəngin, kamil vətəndaşlar yetişdirilməli, ölkə başçısı, möhtərəm prezidentimiz, ulu öndərin davamçısı olan İlham Əliyevin həyata keçirdiyi xarici və daxili siyasətə hörmət edən, vətənə sədaqətli, mərd, yenilməz gənclər tərbiyə edilməli, layiqli qurucular yetişdirilməlidir.

Müstəqil Azərbaycanı yaşatmaq, onu daha da möhkəmləndirmək, güclü dövlətə çevirmək üçün gənclərimiz həm əqli-mənəvi cəhətdən, həm də fiziki cəhətdən hazırlanmalıdırlar. Bunu bizdən bu gün ölkələr arasında layiqli imzası olan müstəqil Azərbaycan dövlətinin mənafeyi tələb edir.

Fikirlərimizi Heydər Əliyevin bu sözləri ilə yekunlaşdırmaq istərdik: "Bu təhsil sisteminin nə qədər dəyərli olduğunu ondan görmək olar ki, Azərbaycanda yüksək savada, biliyə, ixtisasa, yüksək elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edirlər. Əgər bunlar olmasaydı, Azərbaycanın iqtisadiyyatı belə inkişaf edə bilməzdi. Bunlar olmasaydı, biz indi Azərbaycanı müstəqil dövlət kimi idarə edə bilməzdik. Onları qiymətləndirmək lazımdır".

**Məqalənin aktuallığı.** Xalqın mənəvi potensialı özünü dünya sivilizasiyasına qoşulmaqda büruzə verir. Hər bir xalqın dünyaya normal inteqrasiya etməsi üçün onun zəminində ümumilikdə bir proqramı olur. Bu proqramın yaradılmasında məqsəd həmin xalqın müstəqil olaraq mövcudluğu üçün ona lazım olan dəyərləri müəyyənləşdirərək, onları həm qoruyub saxlamaq, həm də dövrün tələblərinə uyğun şəkildə inkişaf etdirərək, zamanla sağlam inteqrasiyaya nail olmaqdan ibarətdir. Azərbaycanın taleyində zaman-zaman bu istiqamətlərdə həlledici rol məhz xalqımızın böyük oğlu Heydər Əliyevə məxsus olmuşdur.

**Məqalənin elmi yeniliyi.** Tədqiqatçılar ulu öndərin işıqlı şəxsiyyəti, onun Azərbaycanın taleyindeki önəmli rolu haqqında kifayət qədər samballı yazılarla çıxış etmişlər. Xalqın ziyalıları həm onun dövlətçilik siyasəti, həm də siyasi və iqtisadi, hərbi, təhsil, səhiyyə, mədəniyyət, incəsənət və digər mühüm sahələrdəki fəaliyyətlərini tədqiq etmişlər. Ümummilli liderimiz tərəfindən müstəqilliyimizin rəhni hesab edilən gənclərimizin düzgün tərbiyə edilməsi sahəsindəki fikirlərinin sistemli şəkildə diqqətə çatdırılması elmi yenilik hesab oluna bilər.

**Praktik əhəmiyyəti.** Ulu öndər Heydər Əliyevin şəxsiyyəti haqqında qələmə alınmış bu məqalədə onun müstəqilliyimizin dayağına və hərəkətverici qüvvəsinə çevrilən gənclərimizin milli-mənəvi tərbiyəsi ilə əlaqədar görüləcək işlərlə bağlı fikirləri tövsiyə şəklində oxucuların diqqətinə təqdim edilmişdir. Məqalədən ümumtəhsil məktəblərinin müəllimləri, məktəbəqədər müəssisələrin tərbiyəçi-müəllimləri, müvafiq fakültələrin tələbələri, bakalavrlar, tədqiqatçılar bir mənbə kimi istifadə edə bilərlər.

## İstifadə olunmuş ədəbiyyat / References

1. Əliyev H. (1997). Müstəqilliyimiz əbədidir. (I kitab). Bakı, "Azərnəşr".
2. Əliyev H. (1997). Müstəqilliyimiz əbədidir. (II kitab). Bakı, "Azərnəşr".
3. Əliyev H. (1996). Müstəqil Azərbaycanın gələcəyi gənclərdir. Azərbaycan Respublikası gənclərinin I forumunda nitq. 02 fevral, 1996-cı il.
4. Əliyev H. (2008). Dövlət xalq üçündür. (kəlamlar, sitatlar, aforizmlər) (redaktə və ön sözün müəllifi X.Vəliyev). Bakı, "Adiloğlu", 400 s.
5. Əliyev H. (1997). Müstəqillik yolu. (seçilmiş fikirlər). Bakı, Azərbaycan Universitetinin nəşriyyatı, 27 s.
6. Əliyev V. (2003). Heydər Əliyevin dil siyasəti. Bakı, "Nurlan", 100 s.
7. Əl-Fəlah Adil Abdulla. (2007). Heydər Əliyev və milli-mənəvi dəyərlər, elmi red. A.Paşazadə; rəyçi V.M.Məmmədəliyev, F.Qasımzadə. Bakı, "Qismət", 108 s.

8. Qasımlı M. (2006). Heydər Əliyev – istiqlala gedən yol: 1969–1987-ci illər, elmi red. Ə.Həsənov. Bakı, Bakı Dövlət Universitetinin nəşriyyatı, 608 s.
9. Nəcəfov N. (2021). Heydər Əliyev və müəllimlər qurultayları / Məmmədova E. Ömrün əbədi işığında. Bakı, 453 s.
10. Talıbov Y., Sadıqov F., Quliyev S. (2000). Azərbaycanda məktəb və pedaqoji fikir tarixi. Bakı, "Ünsiyyət" nəşriyyatı.